Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Xalqına bağlı sənətkar

**Yazıçı İsmayıl Şıxlının 98 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2017**

**Tərtibçi:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**Redaktor:** **Səməd Məlikzadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
Əməkdar Mədəniyyət işçisi

**“Xalqına bağlı sənətkar”:** metodik vəsait.tərt.ed. K. Səmədzadə; red. S.Məlikzadə; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017.-21 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

# Tərtibçidən

Azərbaycan nəsrinin tarixi daha əvvəllərə gedib çıxsa da, ədəbiyyatın bu qolunun inkişafı XX əsrə aiddir. XX əsrə qədər nəsr əsərləri yazmış bir neçə yazıçının adını çəkə bildiyimiz halda, bu əsrdə yaşayaıb-yaratmış nasirlərin böyük bir siyahısını tutmaq mümükündür. Onların da əksəriyyətinin yaradıcılığı sövet dövrünə təsadüf edir. Bu yazıçılardan biri də orijinal yaradıcılıq dəsti-xətti olan İsmayıl Şıxlıdır (1919-1995) .

İsmayıl Şıxlının adı Azərbaycanda həm yazıçı, həm də ictimai-siyasi xadim kimi kifayət qədər geniş tanınır. Yaşlı və orta nəslin nümayəndələri arasında onun "Dəli Kür" romanını və bir sıra kiçik hekayələrini oxumayan adam tapmaq çətindir.

Haqqında söz açdığımız yazıçı, pedaqoq İsmayıl Şıxlı ağır, lakin olduqca maraqlı bir həyat yolu keçmişdir.

# I BÖLMƏ
## Həyat və yaradıcılığı

Azərbaycanın Xalq yazıçısı İsmayıl Qəhrəman oğlu Şıxlı 1919-cu il martın 22-də Qazax rayonunun İkinci Şıxlı kəndində, müəllim ailəsində anadan olmuşdur. İlk təhsilini Kosalar kənd məktəbində almış, Qazaxda pedaqoji məktəbi bitirmişdir. Sonra indiki Azərbaycan Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinə daxil olmuşdur. 1941-ci ildə institutu bitirdikdən sonra Kosalar kənd məktəbində müəllimlik etmişdir. İ. Şıxlı Böyük Vətən müharibəsi illərində Qafqazdan Almaniyayadək uzun və ağır bir döyüş yolu keçmişdir. O, müharibə qurtarandan sonra yenidən ali təhsil aldığı pedaqoji instituta qayıtmış və aspiranturaya daxil olmuşdur. O vaxtdan da elmi-pedaqoji fəaliyyətini bu institutla bağlamış, burada xarici ölkələr ədəbiyyatı kursundan mühazirələr oxumuşdur.

İ. Şıxlı yaradıcılığa şeirlə başlamışdır. Həmin illərdə o, nəsrlə də maraqlanmış və getdikcə nəsrə daha çox bağlanmışdır. İlk şeirləri kimi ilk hekayələri də onu təmin etməmişdir. Lakin o, nəsr yaradıcılığından heç zaman ayrılmamışdır. Bunun əsas səbəbini yazıçı 1974-cü ildə yazdığı “Ürəklərə yol tapmalı” məqaləsində belə izah edir: “Məni əsl mənada nəsrə bağlayan həyatın özü olmuşdur. Böyük Vətən müharibəsi cəbhələrində gördüyüm hadisələri, döyüş çətinliklərini, insanların keçirdiyi iztirabları, onların mürəkkəb psixoloji sarsıntı və döyüş əhvalı-ruhiyyəsini vermək üçün nəsrin imkanlarının daha çox olduğunu dərk etdikdən sonra nasir olmağa çalışdım".

İ. Şıxlının bir nasir kimi inkişafında görkəmli yazıçımız Mehdi Hüseynin xüsusi təsiri olmuşdur. Gənc nasirin Böyük Vətən müharibəsindən əvvəl və sonra yazdığı ilk hekayələrini oxuyan Mehdi Hüseynin ona gördüyü və bildiyi hadisələrdən sadə və təbii

dildə yazmaq v s. sənətkarlıq məsələləri barədə tövsiyələri müsbət nəticə vermişdir.

1941-1945-ci illər müharibəsi İ. Şıxlının həyat yolunda, taleyində mühüm rol oynayıb, silinməz izlər buraxdığı kimi, yaradıcılığına da mühüm mövzu kimi daxil olmuşdur. Onun bu mövzuda 1947-1948-ci illərdə yazdığı hekayələri (“Həkimin nağılı”, “Kerç sularında”, “Səhəri gözləyirdik”, “Haralısan ay oğlan”, “Konserv qutuları”) bir nasir kimi ilk uğurlarıdır.

Bundan başqa, İ. Şıxlı cəbhəyə getdiyi ilk gündən qələbədən sonra evə qayıdanadək gündəlik qeydlər aparmışdır. Yazıçı “Cəbhə yolları” (1985) kitabında bu barədə belə yazır: “Mən hər gün gördüyüm və başıma gələn işləri dəftərimə qeyd edirdim və çalışırdım ki, heç nəyi artırıb əskiltməyim”. “Cəbhə yolları” gündəlik formasında yazılmış sənədli povest hesab oluna bilər. Əsərin bir hissəsi “Ədəbiyyat və incəsənət” qəzetində (1968) çap olunmuşdur. Bundan sonra yazıçı cəbhə gündəliklərinə oxucuların marağını görüb onu “Bir əsgərin gündəliyi” adı ilə “Mənim rəqibim” (1975), bir az təkmilləşdirərək, lakin yenə də ixtisarla “Cəbhə gündəlikləri” adı ilə “Xatirəyə dönmüş illər” və “Məni itirməyin” kitablarına daxil etmişdir. Bu əsərdə yazıçı bu gün də çox aktual olan, çox geniş miqyasda müzakirə və mübahisə obyektinə çevrilən müharibə və insan, müharibənin insan həyatına və taleyinə təsiri məsələsinin özünəməxsus orijinal bədii həllini vermək üçün müharibənin bilavasitə özünü, qanlı döyüş səhnələrini əks etdirib. İ. Şıxlı 70-ci illərdə yazdığı “Mənim rəqibim”, “Köynək” kimi hekayələrində cəbhə xatirələrinə yenidən, lakin yeni bir şəkildə və tam yeni bir niyyətlə müraciət edib. Bu hekayələrdə artıq cəbhə həyatının təsiri yox, müharibənin adamlarımızın həyatına təsiri və onların talelərində oynadığı rolu ilk planda göstərmək meyli güclüdür. Bunlarda döyüşçülərin həyat və fəaliyyətlərinin yeni mərhələsi əks və əhatə olunur. İ.Şıxlının müharibə mövzusunda yazdığı əsərlərinin hamısında güclü

avtobioqrafizm vardır. Bunların hamısında yazıçının özü bu və ya digər dərəcədə obraz kimi iştirak edir.

İ. Şıxlının yaradıcılığında müasir mövzular da mühüm yer tutur. Onun müasir mövzuda yazdığı əsərlərdən biri də “Dağlar səslənir” povestidir. Yazıçı müharibədən sonra Azərbaycanda yeni salınan üç sənaye şəhərlərindən biri olan Daşkəsənlə daha çox maraqlanıb. O, 1950-1951-ci illərin yay aylarını Daşkəsəndə keçirib, bu şəhərin əsasən cavanlarından olan sakinlərinin işi, gündəlik həyatı və fəaliyyətləri barədə oçerklər yazib mətbuatda çap etdirib. Nəhayət, Daşkəsən fəhlələrinin həyatından bəhs edən “Dağlar səslənir” (1951) povesti yaranıb.

İsmayıl Şıxlı az yazan, amma yaxşı yazan yazıçılardan idi. “Dəli Kür”dən sonra o, uzun müddət irihəcmli nəsr əsri yazmayıb. Bununla belə, “Dəli Kür”dən sonra sonuncu əsəri “Ölən dünyam”a qədər olan dövr İsmayıl Şıxlının həyatında mühüm bir mərhələ sayılır.

İsmayıl Şıxlı yaradıcılığının son akkordu ömrünün qürub çağı qələmə aldığı “Ölən dünyam” romanıdır. Əsəri özü yazmağa başlasa da, sonradan ağır xəstəliyin fəsadı nəticəsində gözləri tutulduğu üçün romanın əksər hissəsini diktə etmək məcburiyyətində qalıb; bu işi isə vəfalı həyat yoldaşı Ümidə xanıma həvalə edib.

“Dəli Kür” romanına qədər İ.Şıxlı daha çox müasir həyatın bilavasitə dərindən müşahidə edib, yaxşı öyrəndiyi sahələrindən, aktual əhəmiyyət kəsb edən məsələlərindən yazan istedadlı bir yazıçı kimi tanınıb.

Elə bu vaxt ədəbi mühitin, sakit, aydın səmasında sanki şimşək çaxdı; 1962-ci ildə “Azərbaycan” jurnalında İsmayıl Şıxlının “Dəli Kür” romanının I hissəsi çap olundu. Özünə qarşı həddindən artıq tələbkar olan, hər cümləsinin üstündə əsən, yüz ölçüb bir biçən İsmayıl Şıxlı, sən demə, neçə illər imiş ki, iki otaqlı mənzilinin bir küncünə çəkilib bu əsəri yazırmış. Belə bir əsər naminə özünü

könüllü surətdə çox şeydən məhrum etməyinə dəyərdi. “Dəli Kür” oxucuların hədsiz marağına səbəb oldu. Bütün daxili ziddiyətlərinə baxmayaraq, əsərin baş qəhrəmanı Cahandar ağa hamını sanki əfsunladı. Əsər barədə yazıçı Mehdi Hüseyn yazırdı: “Əzizim İsmayıl! “Dəli Kür” əsərini dünən gecə oxuyub qurtardım. Düzünü deyim ki, mən səndən yaxşı əsərlər gözləyirdim, amma bu cür qüvvətli və təsirli bir əsər yazmağını gözləmirdim. Əhsən, bərəkallah! Son on ildə bizim ədəbiyyatımızdan oxuduğum heç bir əsər məni bu cür sarsıltmamışdı”.

Hamı səbirsizliklə romanın ardını gözləyirdi. Əsəri tamamlamaq üçün İsmayıl Şıxlıya daha dörd il vaxt lazım gəldi. Nəhayət, 1966-cı ildə “Azərbaycan” jurnalında romanın II hissəsi dərc olundu.

## II BÖLMƏ

# Yubiley tədbirlərinin keçirilməsi

Öncə qeyd etdiyimiz kimi, bu il XX əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri, Xalq yazıçısı, gözəl insan İsmayıl Şıxlının 98 yaşı qeyd olunur. Bu münasibətlə respublikamızın orta və ali məktəblərində, mədəni-maarif ocaqlarında, eləcə də F.Köçərli adına Respublika Uşaq Kitabxanasında müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulur. Belə tədbirlərin siyahısı geniş olmalıdır. Məsələn, kitabxanada keçirilən tədbirlərdən kitab sərgisini, oxucu konfransını, ədəbi-bədii gecəni və s. qeyd etmək olar. Kitabxanalarda təşkil olunan kütləvi tədbirlər İsmayıl Şıxlının zəngin ədəbi irsinin oxucular arasında geniş yayılmasına xidmət edir. Onun yaradıcılığının geniş təbliği üçün kitabxanalarda, ilk növbədə, kitab sərgisi təşkil olunmalıdır. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn, “İsmayıl Şıxlı-95,” “Müdrik sənətkar,” “Xalqına bağlı sənətkar” və s. Sərgidə yazıçının seçilmiş əsərləri, onun həyat və yaradıcılığı haqqında qəzet məqalələri, görkəmli adamların şair haqqında

söylədikləri sitatları və s. nümayiş etdirmək olar. İndi isə İsmayıl Şıxlının yaradıcılığı haqqında hazırlanmış sərginin nümunəsini veririk:

1. Başlıq. “Xalqına bağlı sənətkar.”
2. İ. Şıxlının portreti.
3. Kitablarının nümayişi.
4. Görkəmli insanların İ. Şıxlı haqqında söylədiyi sitatlar.
5. Dövri mətbuatda çap olunmuş məqalələrin kartotekası.
6. Şeir parçası:

Familim Şıxlıdır, adım İsmayıl,  
Hardasan, qara bəxtim, tez ayıl...














Kitab təbliğində oxucularla aparılan söhbətlərin əhəmiyyəti də az deyil. Beləki, İsmayıl Şıxlının 98 illik yubileyi münasibətilə təşkil olunmuş kitab sərgisinin qarşısında oxucularla yazıçının həyat və yaradıcılığı, yazdığı povest və romanlar haqqında söhbətlər aparmaq olar. Söhbətlər müxtəlif mövzularda aparıla

bilər. “Yazıçının hekayələri,” “Dəli Kür”, “Cəbhə yolları”, “Sapı özümüzdəndir” və s. kitablar haqqında söhbətləri kitabxanaçı aşağıdakı kimi başlaya bilər:

- Əziz oxucular! Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən biri olan İ.Şıxlı gözəl hekayələr, roman və povestlər ustasıdır. O, “Ayrılan yollar, “Dəli Kür”, “Ölən dünyam” romanları, “Qızıl ilan”, “Namərd gülləsi”, “Təyyarə gecikir” hekayələri, əfsanə və rəvayətləri, publisistik məqalə və çıxışları ilə oxucuların rəğbətini qazanmışdır. Yazıçının qələmə aldığı hekayələri iki xarakterik mövzu ilə diqqəti daha çox cəlb edir: zamanın qaydaları ilə yaşayan, hər hansı çətinlik qarşısında sarsılmayan, ruhdan düşməyən qəhrəmanlarla üz-üzə gəlir, digər tərəfdən yazıçı üzünü keçmişə tutur, mövcud əfsanə və rəvayətlərə müasir ideya işığında baxır, oxuculara tərbiyəvi, əxlaqi fikirlər aşılayır.

Yazıçının hekayələrinin qəhrəmanları sanki bir amal uğrunda yaşayırlar: təmiz vicdan, əxlaqi saflıq, mənəvi kamillik onların başlıca şüarıdır.

İsmayıl Şıxlı bu fani, gedimli-gəlimli dünyada şərəfli, qibtə ediləcək bir ömür yaşadı. O, öncə əsl vətəndaş , sonra görkəmli yazıçı, müəllim, fəal ictimai xadim kimi yaddaşlarda qaldı. İsmayıl Şıxlı 76 il ömür sürdü. Lakin bu illərdə İsmayıl Şıxlı çox məhsuldar işləməsə də, bir yazıçı ömrünü əbədiləşdirəcək əsərlər yazdı.

# Görkəmli şəxsiyyətlərin İsmayıl Şıxlı haqqında söylədikləri

“Dəli Kür” onlarla povestlərin, romanların milli təfəkkürümüzdə yaratdığı mənəvi səhradan axib keçdi və ona can verdi.

***Nizami Cəfərov,***
*filologiya elmləri doktoru, professor*

Tez-tez eşidilən belə bir deyim var, deyirlər: “yazıçının əsərləri oxunursa, deməli, o, yaşayır”. Bunun belə olub-olmadığını mən bilmirəm. Amma onu qəti bilirəm ki, İsmayıl Şıxlı-əsərləri oxunan və sevilən yazıçıdır...

***İntiqam Qasımzadə,***
*tənqidçi, tərcüməçi*

İ.Şıxlının özündən sonra yadigar qoyduğu ədəbi irsi ədəbiyyatımızın qızıl fondunu zənginləşdirən əsərlərdir.

***Balaş Azəroğlu,***
*Xalq şairi*

İsmayıl Şıxlı bəzi qələm dostları ilə müqayisədə az yazan və təbii ki, əsərləri az çap olunan yazıçıdır. Onun az yazması əsərlərinin bədiiliyi, əlvanlığı və təzəliyi ilə özünü doğruldur.

***Bəkir Nəbiyev,***
*filologiya elmləri doktoru, professor*

Necə ki, ədəbiyyatımız var, mədəniyyətimiz, xalqımız yaşayır, İ.Şıxlı da yaşayacaq. Axı İsmayıl Şıxlı dühasından, İsmayıl Şıxlı

qələmindən gələn əsərlər İsmayıl Şıxlı adını xalqımızın hafizəsinə əbədi  həkk edib.

***Ə.Hüseynov,***
*ədəbiyyatşünas*

İsmayıl Şıxlı haqqında onun həyat yolu və yaradıcılığı barədə düşünəndə ürəyimdə bu hisslər oyanır: ədəbiyyatımızın uzun karvan yolunda onu əsl Azərbaycan ruhu, əxlaqı və xarakterinin daşıyıcılarından biri kimi görürəm.

***Sabir Rüstəmxanlı,***
*Xalq şairi*

İsmayıl Şıxlı bizim haqq deyən, haqq söyləyən, ədalət deyən, ədalət söyləyən ziyalımızdır. İsmayıl Şıxlı həqiqətən də ağsaqqallığa layiq bir adamdır.

***Yusif Səmədoğlu,***
*yazıçı-dramaturq*

Çətin günlərimdə mən səni anıb,
Köməyə səslədim duyan insanı.
Ariflər içində çoxdan yaranıb,
İnsanlıq dastanı- Şıxlı dastanı.

***Müzəffər Şükür,***
*Şair*

İsmayıl Şıxlının 1990-cı ildə nəşr olunmuş “Sapı özümüzdəndir” adlı əfsanə və rəvayətlər kitabı əsasında müxtəlif tədbirlər keçirmək olar. Məsələn: söhbət, müzakirə, icmal və s. Belə tədbirlərdən biri də sual-cavab gecəsidir.

Sual-cavab gecəsi oxucuların ən çox sevdiyi tədbirlərdəndir. Tədbirdə əvvəlcə kitabxanaçı müəllif haqqında məlumat verməli, “Sapı özümüzdəndir” kitabının əhəmiyyəti haqqında danışmalıdır.

Bu kitab əsasən el içində yayılmış əfsanə və rəvayətlər əsasında yazıləb. İ.Şıxlı xalqdan aldığı bu mövzulara təzə poetik libas biçib, onu öz sənətinin imkanları baxımından yenidən işləyib.

Tədbir bitdikdən sonra oxuculara veriləcək sualları əvvəlcədən tərtib etmək lazımdır. Kitabda toplanan “Məni itirməyin”, “ Sapı özümüzdəndir”, “Şahın oğlu”, “Sənə aslanım deyən”, “Ruzu”, “Belə məmləkətdə” və s. əfsanə və rəvayətlər haqqında oxuculara aşağıdakı suallarla müraciət etmək olar:

1.“Məni itirməyin” əfsanəsində vicdan insanları nəyə səsləyirdi?

2. “Sapı özümüzdəndir” ifadəsini necə başa düşürsünüz?

3. Bu əfsanənin aktuallığı nədədir?

4. “Ruzu” kekayəsində kasıb kişi necə etiraz edir?

5. Yazıçı “Sapı özümüzdəndir” kitabı ilə oxuculara hansı hissləri aşılayır?

İsmayıl Şıxlının hekayələrinin mövzusunun haradan götürülməsindən asılı olmayaraq ən mühüm məziyyəti müasirliyində, içində olduğumuz sosial proseslərlə səsləşməsində və bu proseslərin düzgün bədii yozumundadır. Üslub keyfiyyəti, mükəmməllik, yığcamlıq burada qabarıq surətdə əks olunub.

İsmayıl Şıxlı çox oxunan, haqqında çox yazılan, xalqın bütün təbəqələri tərəfindən tanınan və sevilən yazıçımızdır. Onun “Dəli Kür” romanı kifayətdir ki, İsmayıl Şıxlıdan böyük yazıçı kimi söz açaq. “Dəli Kür”ün müstəsna şöhrəti və dəyəri İsmayıl Şıxlının ayrı əsərlərini kölgədə qoyub və onun yaradıcılığnın tam qiymətləndirilməsinə mane olub. “Dəli Kür” Azərbaycan ədəbiyyatının ən monimental romanıdır. İsmayıl Şıxlı bu roman üzərində on il yaradıcılıq işləri aparıb.

İsmayıl Şıxlı yaradıcılığı ilə böyük yaş qrup oxucuları yaxından tanış etmək üçün yazıçının “Dəli Kür” romanının müzakirəsini keçirmək olar. “Dəli Kür” romanı XIX əsrdə tarixi qanunauyğunluqlarin Azərbaycan xalqının həyatına daxil olma prosesini, adamların yaşayışında, mənəviyyatında əmələ gətirdiyi

köklü dəyişiklikləri realist inandiricilıqla göstərən bir əsərdir. "Dəli Kür" romanında dramatizm ünsürlərü müxtəlif şəkillərdə özünü göstərir. Hər şeydən əvvəl, bu, qollu-budaqlı qəhrəmanların münasibətlərində, ehtirasların toqquşmasında, tərəflərin mübahisəsində, ölüm-dirim mübarizəsində üzə çıxır, hətta bəzən dramatizmin həlli silaha əl atmaqla başa çatır. "Dəli Kür" romanının müzakirəsi zamanı aydınlaşdırılır ki, Cahandar ağa kimdir və müasir oxucu Cahandar ağanı necə qiymətləndirir? "Dəli Kür" romanı müxtəlif taleli, müxtəlif təbiətli, müxtəlif dünya duyumlu obrazlar qalereyasıdır: Cahandar ağa, Zərnigar xanım, Şamxal, Salatın, Şahnigar, Molla Sadıq və başqaları. 1970-ci ildə "Azərbaycanfilm" kinostudiyası İ.Şıxlının ssenarisi əsasında "Dəli Kür" bədii filmini çəkmişdir.

Cahandar ağa obrazı bu gün ədəbiyyatımızın şah obrazı hesab edilir. O, uşaq qədər sadə, həlim, xeyirxah, qurd qədər qorxmaz, cəsur, barışmaz, allah adamı, yenilik tərəfdarı, məhəbbətindən keçməz, nifrətindən dönməz bir sözlə tipik Azərbaycan - müsəlman kişisinin obrazını təcəssüm etdirir. Özünə-sözünə hörmət qoymaq, əsl ağsaqqal təmkinini və ləyaqəti təmsil elədiyi xalqın xarakterik xüsusiyyətlərini yaşatmaq bacarığı, cəngavər dönməzliyi, düşdüyü bütün vəziyyətlərdə dədə-babaların mərdanəlik qanunlarını pozmamaq Cahandar ağanın simasında ümumiləşdirilib.

Cahandar ağanın həyat yolu maneələrlə doludur. Bu maneələr mürəkkəbliyi və keçilməzliyi ilə əsrin tələbini, zamanın hökmünü xatırladır və Cahandar ağanın ölümə doğru hərəkətini sürətləndirir. Cahandar ağa, nəhayət, özü dərk edir ki, daha istədiyi kimi yaşamaq mümkün deyil; yeganə bir yol qalır ki, o da istədiyi kimi "ölmək"dir. Cahandar ağa bu yolu qəbul edir və beləliklə, faciəvi xarakter səviyyəsinə yüksəlir. Əsərin digər qəhrəmənları da həmçinin - pisi pis, yaxşısı yaxşı. Beləliklə, İsmayıl Şıxlı bir kənd, bir ailə timsalında bir xalqın, el-obanın taleyindən monimental bir əsərin yaranmasına nail olub.

İsmayıl Şıxlı zaman-zaman oxunacaq bir kitabdır -“Dəli Kür”dür.

İsmayıl Şıxlının yaradıcılıq dairəsi genişdir. Ömrü boyu həqiqət, düzgünlük adlı bir varlığın axtarışında olub. Bütün əsərlərində insanı uca tutub, böyük xarakterlər yaradıb, xeyrin, ədalətin qələbəsinə çalışıb. Xalqa arxalanıb. Ona görə də həmişə xalqın yaddaşındadır, elin böyük mənəviyyatı kimi aydın və həmişəyaşardır.

Görkəmli yazıçı İsmayıl Şıxlı yaradıcılığı ilə oxucuları yaxından tanış etmək üçün kitabxanada ədəbi-bədii gecənin keçirilməsi daha vacibdir. Kitabxanaçı ədəbi-bədii gecəyə qabaqcadan hazırlaşmalıdır. İlk əvvəl tədbirin ssenarisi yazılır. Tədbirdə iştirak edən qonaqlar müəyyənləşdirilir. Tədbir iki hissədən ibarət olur. Birinci hissədə çıxış və məruzələr dinlənilir. İkinci hissədə isə yazıçının əsərlərindən, hekayə və povestlərindən səhnəciklər göstərilir. Tədbirdə şair və yazıçılar, ədəbiyyat müəllimləri və başqaları iştirak edirlər. “Müdrik sənətkar - İsmayıl Şıxlı” adlı ədəbi-bədii gecənin ssenarisini nümunə üçün veririk. Səhnədən İsmayıl Şıxlının portreti asılır. Yubileylə bağlı səhnə gül-çiçəklə bəzədilir.

Aparıcılar səhnəyə daxil olur:

**I aparıcı:** - Hörmətli tədbir iştirakçıları! Bu gün Xalq yazıçısı, öz roman, povest və hekayələri ilə oxucuların dərin rəğbət və məhəbbətini qazanmış İsmayıl Şıxlının 98 illiyini qeyd etmək üçün toplaşmışıq. Gəlin birlikdə İsmayıl Şıxlının həyat və yaradıcılığına bir daha nəzər salaq.

Maraqlı və qəribə bir faktdır ki, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin əksəriyyəti ya bahar, ya da payızda anadan olub. Bu da taleyin qismətidir. Yaradıcı insanların daxili aləmi kimi, dünyaya gəldikləri gün də qeyri-adiliyi ilə seçilib.

Çağdaş Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan İsmayıl Şıxlı ötən əsrin əvvəllərində xalqımız Novruz bayramını qeyd etdiyi məqamda dünyaya gəlib. Ata-anası üçün

Tanrının göndərdiyi bu oğul payı sonralar Azərbaycan ədəbiyyatının sütunlarından biri oldu. İsmayıl Şıxlı zəngin və mənalı bir ömür yolu keçmişdir. Bu ömür yolu böyük sənətkarlar, ədiblər diyarı Qazaxın İkinci Şıxlı kəndindən başlayır, sonra bu yol şaxələnir: Bakıda təhsil illəri, Böyük Vətən müharibəsi, sonra yenə Qazaxda kənd müəllimliyi, nəhayət, Bakıda geniş ədəbi mühitdə formalaşması, "Səməd Vurğun, Mehdi Hüseyn dərsləri", bir yazıçı kimi Azərbaycanda və onun hüdudlarından kənarda şöhrət qazanması, ictimai-siyasi həyatda fəaliyyəti...

Müharibənin od-alovundan keçmiş İsmayıl Şıxlı təbiətcə sərt və dönməz bir adam idi. Bu cəhət onun yaradıcılığında da bariz nəzərə çarpırdı. İ. Şıxlı nəsri təbii boyaları, kəskin həyat lövhələri və parlaq xarakterləri ilə diqqəti cəlb etmişdir.

İsmayıl Şıxlı 1919-cu ildə müəllim ailəsində anadan olmuşdur. O, ilk təhsilini Kosalar kənd məktəbində almış, sonra isə Qazax Pedaqoji Məktəbini bitirmişdir. Əmək fəaliyyətinə Kosalar kəndində müəllimliklə başlamışdır. İsmayıl Şıxlının gördüyü ilk yazıçı Əbülhəsən Ələkbərzadə olmuşdur. Bu barədə o, xatirələrinin birində yazır: "Şəhərə xəbər yayılmışdı ki, Bakıdan yazıçı gəlib, tələbələrlə görüşmək istəyir. Azərbaycanın ucqar rayon mərkəzlərindən biri olan Qazax şəhərindəki pedaqoji texnikumunda oxuyanlar üçün bu xəbər gözlənilməz və maraqlı idi. Axı biz indiyə qədər yazıçı görməmişdik..."

Bir müddət müəllimlik etdikdən sonra İ. Şıxlı təhsilini artırmaq üçün Bakıya gəlir, Azərbaycan Pedaqoji İnstitutuna daxil olur. Özünün dediyinə görə, əvvəllər şeir, sonra hekayələr yazmağa başlayır. Yazdıqlarını gizlincə tələbə yoldaşlarına oxuyur, onların tərif və tənqidlərini eşidir. Tələbə dostları onu mənsur şeir ustası adlandırır, bu yazıları Arazinin "Günəş", "Qızıl lalələr" hekayələri ilə yanaşı tuturdular. Məhz bu təriflərdən cəsarətə gələn İ.Şıxlı o zaman tanınmış yazıçı M. Hüseynin yanına gəlir. M. Hüseyn elə ilk görüşdən gənc İ. Şıxlıya ciddi məsləhətlər verir, hətta yazıya öz

münasibətini bildirir. M. Hüseynin tövsiyə və məsləhətləri İ. Şıxlıya, sözün əsl mənasında, dərs olur.

İsmayıl Şıxlının tələbəlik illəri repressiyanın baş alıb getdiyi dövrə düşür. Onun gözləri qarşısında müəllimlərinin bir çoxunu - ədəbiyyat və dil tariximizin bilicilərini gedər-gəlməzə göndərirlər.

1941-ci ildə İ. Şıxlı ordu sıralarına yola düşür. Dörd il müharibədə iştirak edir. Sonralar bu döyüş yolu yazıçının "Cəbhə gündəlikləri" publisistik əsərində, "Kerç sularında" sənədli povestində dolğunluğu ilə əks olunur.

Müharibədən qayıdan İ. Şıxlı yarımçıq təhsilini davam etdirir, sonra aspiranturada oxuyur.

Oxucular İsmayıl Şıxlının "Ölüləri qəbristanda basdırın" adlı kitabında yer alan "Dostum Hüseyn Arifin lətifələri", "Dostum Qabilin qəribə əhvalatları" kimi silsilə kiçik hekayələrdən bir neçəsini sizlərə təqdim edir.

**************************

Bir gün küçədə qabaqlaşırlar. Hüseyn Arif görür ki, Vaqif Nəsibin kefi yoxdu. Onun fikrini dağıtmaq istəyir.

-Nə var, nə yox, "Azərbaycan pioneri" qəzeti necədir?

-Xəbərim yoxdu.

-Niyə, bəs orda işləmirsən?

-Çıxardıblar.

-Kim?

_Redaktor Əmrah Əmrahov.

_Niyə?

-İki dəfə işə geçikdim, bir şey demədi. Üçüncü dəfədə əmrimi verdi.

Hüseyn alnını qırışdırıb fikrə gedir və birdən çıxış yolunu tapmış kimi dillənir.

-Eybi yoxdu. Sabahdan işə vaxtında get.

*******************

Bir dəfə Hüseyn Arif Süleyman Rüstəmi, Rəfiq Zəkanı Buzovnaya, bir dostunun evinə qonaq aparır. Küçələrin birində maşından düşüb göy rəngli qapıya yaxınlaşırlar. Zəngi basirlar. Ev sahibi qapını açıb gələnlərin üzünə baxır.

-Kimi istəyirsiniz?

Hüseyn dərhal geri çəkilir.

-Yox, bu deyil.

İkinci qapını döyürlər. Bu ev sahibi də qapını açır. Hüseyn dərhal geri çəkilir.

-Yox, bu da deyil.

Üçüncü qapıya yaxınlaşanda Süleyman Rüstəm dözmür:

-Ay, Hüseyn, dostunun adı nədi?

-Yadımdan çıxıb.

- Bəs, axırıncı dəfə nə vaxt görüşübsünüz?

-Otuz il qabaq. 1947-ci ildə.

*********************

Bir gün Bəyim xanım işdən qayıdanda görür ki, evdə hay-haray var, dəhliz suyun içindədir, elə divarlar da. Heç nə başa düşmür. Otaqlara, mətbəxə baxır və səsgələn yerə gedir. Qapını açanda görür ki, Qabil su illə əlləşir, balaca oğlu Mahir də yanında. Dayanıb baxır. Vanna su ilə dolu idi. Qabil Şamaxıdan oğluna pay göndərilən hind toyuğunu suya basırdı. Yazıq quş isə çırpınıb çıxır, qanadlarını gərib ətrafı suya qərq edir, bərkdən qışqırıb Qabilin əlindən qurtarmağa çalışırdı. Qabil isə onu təzədən tutub suya basmaq istəyirdi. Bəyim xanım ərinin bu hərəkətinə təəccüblənir.

-Qabil nə edirsən?

-Hinduşkanın neçə üzdüyünü Mahirə göstərmək istəyirəm.

-A kişi, heç hinduşka da üzər?

-Nöş üzmür? Bəs ördək, qaz niyə üzür, bu da üzsün də, bu da quş deyil?

**II aparıcı:** - İ. Şıxlı başqa yazıçılarla müqayisədə cild-cild romanlar, povestlər, hekayələr, publisist əsərlər, ədəbi-tənqidi məqalələr qoyub getməmişdir. Az yazmışdır, lakin onun qələmindən çıxan hər bir yazı həm dərin məzmununa görə, həm də sənətkarlıq cəhətdən uzunömürlüdür.

İsmayıl Şıxlı müsahibələrinin birində deyir: “Yazıçı üçün ən böyük səadət xalqın məhəbbətini qazanmaqdır. Bunun üçün də ümdə şərt xalqla birgə yaşamaq, həmişə özünü onun bir zərrəsi hesab etməkdir. Belə olduqda xalq səni doğma övladı kimi sevəcək”.

1988-ci ildə Azərbaycanda xalq hərəkatı başlananda İ.Şıxlı onun fəal iştirakçılarından birinə çevrilir, Azərbaycanın istiqlalı uğrunda mübarizədə bir ağsaqqal yazıçı kimi yaxından iştirak edir. O, Azərbaycan Milli Məclisinə deputat seçilir, Qanlı yanvar hadisələri zamanı rus qoşunlarının tezliklə Bakıdan çıxarılmasını tələb edən məşhur sessiyaya sədrlik edir.

İsmayıl Şıxlı ictimai-siyasi xadim kimi də fəaliyyət sahibi idi. Yuxarıda qeyd etdiyimiz kimi, xalqımızın ağır günlərində həmişə meydanlarda olub. Müstəqillik uğrunda mübarizədə İsmayıl Şıxlının da böyük əməyi var... Ağırtaxtalı və istedadlı yazıçı olan İsmayıl Şıxlı həqiqətən kişi ömrü yaşayıb. Zahirən sakit təsir bağışlasa da, əsərlərini oxuduqca onun qəlbində hansı fırtınaların, üsyanların yatdığı bəlli olur.

İ. Şıxlı 1984-cü ildə “Xalq yazıçısı” fəxri adına layiq görülmüşdür. Ancaq o, bu fəxri adı almamışdan əvvəl də xalqın sevdiyi sənətkarlardan biri idi. Təkcə “Dəli Kür” romanı ilə o, ədəbiyyat tariximizdə əbədi yaşayacaq.

İsmayıl Şıxlı xalqının sevgisini qazanan, onun ürəyinə yol tapan sənətkarlardan idi. Gözəl və dəyərli yazıçımız İsmayıl Şıxlı 1995-ci il iyul ayının 26-da ağır xəstəlikdən sonra vəfat etmişdir.

İsmayıl Şıxlı zaman-zaman oxunacaq bir kitab, müxtəlif nəsillərin müraciət etməli olduğu bir məktəb qoyub getmişdir.

## *Tövsiyyə olunan ədəbiyyat siyahısı*

## Kitablar

1. Şıxlı İ. Seçilmiş əsərləri.II cilddə. I cild.-B.:Şərq-Qərb,2005.

2. Şıxlı İ. Seçilmiş əsərləri.II cilddə.II cild.- B.:Şərq-Qərb,2005.

3.Şıxlı.İ. Seçilmiş əsərləri. II cilddə.- I cild.- B.:Azərnəşr,1986.-480s.

4. Şıxlı İ. Seçilmiş əsərləri. II cilddə II cild.-B.:Azərnəşr,1986.-477s.

5. Şıxlı İ. Ayrılan yollar. Roman.-B.:Uşaqgəncnəşr,1957.-260s.

6. Şıxlı İ. Dəli Kür. Roman.-B.:Yazıçı,1982.-436s.

7. Şıxlı İ. Kerç sularında: Hekayələr.-B.:Azərnəşr,1950-139s.

8. Şıxlı İ. Məni itirməyin: Hekayə, əfsanə, xatirə.-B.:Gənclik, 1984.-364s.

9.Şıxlı İ. Mənim rəqibim: Hekayələr.B.: Gənclik, 1975.-190s.

10.Şıxlı İ. Namərd gülləsi: Hekayələr, xatirələr.-B.:Yazıçı,1991.-228s.

11. Şıxlı İ. Ölən dünyam: Roman._B.: Azərnəşr,1995.-152s.

12. Şıxlı İ. Ölüləri qəbristanda basdırın.-B.:Gənclik,1992.-272s.

13.Şıxlı İ. Sapı özümüzdəndir: Əfsanə və rəvayətlər.-B.:Gənclik,1990.-62s.

## *Haqqında*

## Dövri mətbuatda

1. Azəroğlu. İsmayıl Şıxlını düşünərkən // Ədəbiyyat qəzeti.-2005.-12 avqust.

2. Dünyamalıyev D. Unudulmaz insan. Məzun öz müəllimi haqqında //Azərbaycan müəllimi.-2000.-6 iyul.

3. Əfəndiyev P. İsmayıl Şıxlı // Azərbaycan müəllimi.-2006. -28 iyul.

4. Əsgərli Z. İsmayıl Şıxlı haqqında monoqrafiya//Azərbaycan müəllimi.-2001.- 4-10 yanvar.
5. Həsənov H.Ə. Tarixin sınağından çıxan şəxsiyyət // Ədəbiyyat qəzeti.-2002.- 18 oktyabr.
6. Turan A. Ölüləri qəbristanda, monstrları harda gəldi basdırırlar: "Ölüləri qəbristanda basdırın"əsərinin tamaşası haqqında // Ədəbiyyat qəzeti.-2006.-20 yanvar.

# “Xalqına bağlı sənətkar”
**(metodik vəsait)**

**Kompüter yığımı və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 26
Çapa imzalanmışdır 12.01.2017
Tirajı:100
Pulsuz